**Xarici ölkələrdəki qida obyektlərinin təsdiqi prosesinə dair məlumat**

**(may-iyun 2023)**

Cari ilin may və iyun ayları ərzində Rusiya Federasiyası, Belarus Respublikası, Bolqarıstan Respublikası, Çin Xalq Respublikası, Gürcüstan Respublikası, İran İslam Respublikası və Ukrayna Respublikasına məxsus *22-si* yerində, *28-i* isə onlayn formatda aparılmaqla *50* müəssisədə qiymətləndirmə həyata keçirilib.

Hazırda qiymətləndirmə aparılmış xarici qida obyektlərindən qiymətləndirmə hesabatları yekunlaşan *23* xarici obyektdən *9-u* təsdiq edilib, *12-si* şərti təsdiq edilib, *1-nə* təsdiqdən imtina verilib və *1-i* ilə bağlı isə təkrar qiymətləndirmənin aparılması barədə qərar qəbul edilib.

Qeyd edək ki, cari ilin iyun-avqust ayları ərzində adıçəkilən ölkələr, eyni zamanda Almaniya Federativ Respublikası, Polşa Respublikası və Türkiyə Respublikası da daxil olmaqla, *18-i* yerində, *94-ü* onlayn formatda (həmin ölkələrin aidiyyəti qurumları ilə razılaşdırılmış siyahı əsasında) *112* müəssisədə qiymətləndirmə aparılması nəzərdə tutulur.